KASPI SƏRBƏST

# Vətənpərvərliyin, qəhrəmanlığın, ölməzliyin dastanı

## Milli Qəhrəman Mübariz İbrahimova həsr olunmuş "Mübariz" romanı təqdim edilib

**Biləsuvar rayonunun Əliabad kəndində Milli Qəhrəman Mübariz İbrahimova həsr olunan "Mübariz" romanının təqdimat mərasimi keçirilib. Milli Qəhrəmanın ata ocağında keçirilən mərasimdə "Bütöv Azərbaycan" qəzetinin baş redaktoru Tamxil Ziyəddinoğlu çıxış edərək, öz qəhrəmanlığı və şücaəti ilə nəinki Azərbaycana, eləcə də dünyaya səs salan M.İbrahimovun doğulduğu evdə, böyüyüb boya-başa çatdığı kənddə olmaqdan qürur hissi keçirdiyini dilə gətirib.** O, "Mübariz" romanının müəllifi, yazıçı-jurnalist Miraslan Bəkirlinin Azərbaycan ədəbiyyatında öz sözü və yeri olan istedadlı nasirlərdən biri olduğunu bildirib. Qeyd edib ki, "Mübariz" romanından əvvəl M.Bəkirli milli faciələrimizlə bağlı "Sürgün", "Kəlbəcər ağrısı", "Yiyəsizlər", "Qara canavar" kimi roman və povestlər, "Həsrət", "Yar yanında günahkaram", "Ruh", "Ulartı", "Qaradonnu" kimi hekayələr, "Kəndim-kədərim" adlı iki hissəli kitab yazıb. "Mübariz" romanı barədə məlumat verən natiq bildirib ki, bu əsərdə ah-amanla dolu çox mürəkkəb zamanda iyirmi iki yaşlı bir türk əsgərinin qeyri-adi qəhrəmanlığından, olmuş hadisələrdən söhbət açılır. Onun sözlərinə görə, M.Bəkirli romanda oxucuları inandırmağa çalışıb ki, Mübariz türk əsgərinin ümumiləşdirilmiş obrazıdır.

Əsərin müəllifi M.Bəkirli təqdimata və ünvanına söylənilən xoş sözlərə görə minnətdarlığını ifadə edib. Qeyd edib ki, Milli Qəhrəman M.İbrahimov yaşadığımız müasir dövrdə sözün əsl mənasında qəhrəmanlıq göstərib, türk əsgərinin, döyüşçüsünün nəyə qadir olduğunu, təkbaşına döyüşü, rəşadəti, qorxmazlığı ilə sübut edib. Mübariz təəccüblənməyin çətin olduğu indiki dövrdə öz qəhrəmanlığı ilə nəinki milyonlarla insanı təəccübləndirib, qeyri-bərabər döyüşdə nümayiş etdirdiyi ərənliyi ilə hər kəsi heyrətləndirib. M.Bəkirli Azərbaycan Prezidenti İlham Əliyevin şəhid hərbçilərimiz Fərid Əhmədov və M.İbrahimovun vida mərasimindəki çıxışını da diqqətə çatdıraraq, hər iki qəhrəmanımızda Vətən, torpaq sevgisinin, vətənpərvərlik ruhunun yüksək olduğunu vurğulayıb. Deyib ki, məhz bu sevgi, istək, vətənpərvərlik ruhu onların hər ikisini şəhidlik zirvəsinə ucaldıb.




Yazdığı roman barədə məlumat verən müəllif bildirib ki, əsərin milli-mənəvi dəyərlərə, öz qanı bahasına Vətənə xidmət edən hərbçilərimizin adına layiq olması üçün əlindən gələni edib. O, bu əsəri Milli Qəhrəman M.İbrahimovun timsalında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan bütün oğul və qızlarımıza ithaf etdiyini dilə gətirib.

Təqdimat mərasimində filologiya üzrə fəlsəfə doktoru, jurnalist İlham Məmmədli, Hacı Mahir Vəliyev, Seyid Hacı Mirsəfər Fətiyev və başqaları da çıxış edərək Milli Qəhrəman M.İbrahimovun qəhrəmanlığından söhbət açıblar.

Çıxışlardan sonra "Mübariz" romanı ilk olaraq şəhidin atası Hacı Ağakərim İbrahimova təqdim olunub.

Oğlunun əziz ruhuna, onun valideynlərinə, ailə üzvlərinə göstərilən sonsuz diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə, ümumilikdə Azərbaycan xalqına, o cümlədən əsərin müəllifinə, qonaqlara səmimi minnətdarlığını bildirən Hacı Ağakərim İbrahimov Milli Qəhrəman M.İbrahimovun tək onun deyil, Azərbaycan xalqının övladı olduğunu söyləyib. O, Mübarizin qəhrəmanlığı ilə qürur duyduğunu, xalqın Mübarizə olan sevgisi ilə təsəlli tapdıqlarını, bununla da onun ölməzliyinin şahidinə çevrildiklərini vurğulayıb.

Təqdimat mərasiminin sonunda "Mübariz" romanının dərc olunduğu çoxsaylı kitablar həm Milli Qəhrəmanın ata ocağına, həm də orta təhsil aldığı məktəbə bağışlanıb.

**Rufik İSMAYILOV**
*Bakı-Biləsuvar-Bakı*